Rəsmi dövlət qəzeti

BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ!

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN ORQANI

№ 115 (1132) 21 ИЈУН 1995-ҹи ИЛ. ЧӘРШӘНБӘ. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur ИНДЕКС 66868 Гијмәти 200 манат.

# АЗӘРБАЈҸАН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВ ШЕЈХҮЛИСЛАМ ҺАҸЫ АЛЛАҺШҮКҮР ПАШАЗАДӘНИ ГӘБУЛ ЕТМИШДИР



Ијунун 20-дә Азәрбајҹан Республикасынын президенти Һејдәр Әлијев Гафгаз Мүсәлманлары Идарәсинин сәдри Шејхүлислам Һаҹы Аллаһшүкүр Пашазадәни гәбул етмишдир.

Хәбәр вердијимиз кими, бу күнләрдә Русија пајтахтында Москва вә Үмумрусија патриархы II Алекси, Шејхүлислам Һаҹы Аллаһшүкүр Пашазадә вә бүтүн ерменилерин али патриархы католикос I Гарекин арасында көрүш олмушдур. Бу көрүш барәдә президентә мә'лумат верән Азәрбајҹан мүсәлманларынын дини рәһбәри деди: Үмумрусија патриархы белә бир фикри хүсуси вурғулады ки, кечмиш иттифагдан ајрылмыш республикалар арасында Азәрбајҹан јеканә дөвләтдир ки, орада руслар һеч бир тәзјиг олмадан сәрбәст шәкилдә вә өлкәнин бәрабәр һүгуглу вәтәндашлары кими јашајырлар.

Һаҹы Аллаһшүкүр Пашазадә II Алексинин мәктубуну дөвләтимизин башчысы Һејдәр Әлијевә чатдырды вә онун Азәрбајҹана сәфәрә кәлмәк нијјәтиндән сөһбәт ачды.

Шејхүлислам Москва вә Үмумрусија патриархынын һимајәси вә ерменилерин католикосунун иштиракы илә Москвада кечирилән көрүшүн нәтиҹәләриндән данышаркән деди ки, биз Дағлыг Гарабағ мүнагишәсинин сүлһ јолу илә арадан галдырылмасы, ишғал едилмиш торпагларымызын азад олунмасы, гачгынларымызын өз јерләринә дөнмәси вә әсирләрин, кировларын гајтарылмасы мәсәләләрини һәртәрәфли мүзакирә етдик.

Аллаһшүкүр Пашазадә Москвада үч дини рәһбәр тәрәфиндән имзаланмыш биркә бәјанатын мәтнини Азәрбајҹан президентинә тәгдим етди.

Дин рәһбәрләринин Москва көрүшүнү мүсбәт гијмәтләндирән Һејдәр Әлијев Русија илә Азәрбајҹан арасында әлагәләрин мөһкәмләндирилмәси мәсәләләринин республикамызын хариҹи сијасәтиндә мүһүм јер тутдуғуну сөјләди. О, Азәрбајҹан илә Русија арасында достлуг мүнасибәтләринин даһа да инкишаф етдирилмәсиндә дин хадимләри гаршысында дуран вәзифәләрдән дә данышды.

II Алексинин Азәрбајҹана сәфәр етмәк барәдә нијјәтини разылыгла гаршылајан президент өзүнүн дә она дә'вәт көндәрәҹәјини сөјләди вә гаршыдакы сәфәрин әһәмијјәти үзәриндә дајанды.

Москва көрүшүндән мәмнун галдығыны билдирән Һејдәр Әлијев Шејхүлисламын бу саһәдә әввәлләр дә апардығы ишин әһәмијјәтли олдуғуну гејд етди вә бүтүн бунларын һәләлик лазыми нәтиҹә вермәдијиндән тәәссүфләндијини сөјләди. Республика рәһбәринин фикринҹә, бунa бахмајараг һәмин истигамәтдә иш давам етдирилмәлидир.

Ерменистан — Азәрбајҹан мүнагишәсинин сүлһ јолу илә арадан галдырылмасы мәгсәди илә АТӘТ-ин Минск групу чәрчивәсиндә ијунун 15-дән Һелсинкидә апарылан данышыглардан бәһс едән президент деди ки, биз мүһарибәнин баша чатмасы үчүн бүтүн васитәләрдән — дөвләт органларынын, иҹтимаи тәшкилатларын, зијалыларын, дин хадимләринин көрүшләриндән дә истифадә етмәлијик.

Дин хадимләринин Москвада гәбул етдикләри биркә бәјанатын әһәмијјәтини хүсуси вурғулајан Һејдәр Әлијев деди ки, һазырда торпагларымызын 20 фаизинин ишғал алтында олмасына, бир милјондан чох инсанын өз јерләриндән зоракылыгла дидәркин салынмасына бахмајараг биз сүлһ тәрәфдарыјыг.

II Алексинин мәктубуну разылыгла гәбул едән дөвләт башчысы онун Азәрбајҹана сәфәринин јахшы тәшкил едилмәсинин ваҹиблији мәсәләсинә дә тохунду. Президент деди ки, рус милләтиндән олан адамлар Азәрбајҹанда һәгигәтән бәрабәр һүгуглара маликдирләр. Раһат јашамалары, әмәк фәалијјәти илә мәшғул олмалары, өз истәк вә арзуларыны јеринә јетирмәләри үчүн биз онлара лазыми шәраит јаратмышыг. Һејдәр Әлијев деди ки, кечмиш ССРИ-јә дахил олмуш республикаларын һамысында јашајан руслар һазырда мүәјјән чәтинликләрлә үзләширләр. Анҹаг II Алексинин дә дедији кими, Азәрбајҹанда русларын јашамасы үчүн һеч бир проблем јохдур. Дөвләт башчысынын фикринҹә, бу онунла әлагәдардыр ки, Азәрбајҹанда демократик принсипләрә кениш әмәл олунур, өлкәмиздә јашајан һәр бир вәтәндаш дини мәнсубијјәтиндән, дилиндән, иргиндән, сијаси дүнјабахышындан асылы олмајараг ејни һүгуглара маликдир.

Һејдәр Әлијев ахырда деди ки, руслар һәмишә әһалимизин бир һиссәси олублар вә бундан сонра да белә олаҹагдыр. О деди ки, биз бу сијасәти Русијаја хош кәлмәк үчүн апармырыг, садәҹә олараг сијасәтимиз беләдир. Азәрбајҹан рәһбәри һәмин сијаси хәттин Русијада да бәјәнилдијини гејд етди.

**АзәрТАҹ.**

**Фото О. Ајдыноғлунундур.**